AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Kapital Bank
BİRİNCİ BANK

RESPUBLİKA FƏNN OLİMPİADALARI
2020-2021
Respublika mərhələsinin yarımfinal turu

# Azərbaycan dili və ədəbiyyat
# aşağı yaş qrupu (8-9-cu siniflər)

Ad____________________ Soyad ____________________

*İmtahan müddəti 180 dəqiqədir.
*1-10-cu suallar 3 bal, 11-20-ci suallar 4 bal, 21-30-cu suallar 5 bal ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
*Olimpiadanın nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!

10.03.2021

**1. Fərqləndirilmiş sözlərin hər üçünə aid olan fikir hansı bənddə göstərilmişdir?**

*Sinəmin <u>dağları</u> həsrət <u>dağıdır</u>,*
*Qurduğum qalanı həsrət <u>dağıdır</u>.* (A.Cəmil)

A) Kökünün isimlə omonimliyi var.
B) Leksik şəkilçisi yoxdur.
C) İltisaqilik prinsipi qorunmuşdur.
D) Şəxs sonluğu artırılmışdır.
E) İki qrammatik şəkilçi artırılmışdır.

2. **Uyğunluğu müəyyənləşdirin:**

| | | |
|---|---|---|
| I. | Elçin "Talvar" | Əminə |
| II. | Mir Cəlal "Vətən yaraları" | Əliabbas |
| III. | Seyid Hüseyn "İki həyat arasında" | Lətif |
| IV. | Mehdi Hüseyn "Nişan üzüyü" | Ənisə |

A) 
B) 
C) 
D) 
E) 

**3. *"Gəlin"* ismi hansı nümunədə nöqtələrin yerinə yazılsa, vurğusu digərlərindən fərqlənər?**

A) 1972-ci ildə «............ qayası» operasını yazmaqla Şərqin ilk opera yazan qadın bəstəkarı kimi tarixə düşən Şəfiqə Axundova vəfat edib.
B) Qayınata və qayınanaya da münasibətdə qadın bütün həyatı boyu ............ adlanır.
C) Xumar gözlərini sevəndən bəri,
Dəxi özgəsinə uymaram, ..........!
D) "Sarı ........" —Azərbaycan Respublikası, İran, İraq və Türkiyədə yaşayan türklər arasında yayılmış bir mahnıdır.
E) Qaydaya görə, qız ................ köçürüldükdə, ayaqqabısından başqa, istədiyi bütün paltarlarını yeni mənzilinə apara bilər.

**4. İsimlərdən biri fərqli şəkilçi ilə düzəlib.**

A) daraq B) dayaq C) qoruq D) yataq E) ələk

**5.** "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" sərəncam kim tərəfindən imzalanmış və bu sərəncama görə hansı gün "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd edilir?

A) İ.Əliyev – 1 avqust
B) Ə.Elçibəy – 1 sentyabr
C) M.Ə.Rəsulzadə – 21 fevral
D) H.Əliyev – 21 fevral
E) H.Əliyev – 1 avqust

**6. Fərqləndirilmiş sözün təhlili ilə bağlı fikirlərdən biri *səhvdir*.**

*Üstümü unlu görüb adımı <u>dəyirmançı</u> çağırma.*

A) Başlanğıc formada işlənmişdir.
B) Mənsubiyyət şəkilçisi qəbul etməyib.
C) Sənət, peşə anlayışı bildirən isimdir.
D) İsmin adlıq halındadır.
E) Ümumi isimdir, konkretdir.

**7. Uyğunluğu müəyyənləşdirin:**




a. İşlərin bitdimi, tez evə gəl.
b. Hərçənd artıq gec idi, amma heç kəs evinə getmək istəmirdi.
c. İşlərin belə qurtarmasında o özünü daha çox günahkar hesab edirdi, çünki həqiqətləri bilirdi.
d. Əlidən hamı qələbə gözləyirdi, belə ki, bütün ümidlər ona idi.
e. Şayiələrə inanmasam da, ancaq ürəyimə xal düşmüşdü.

A) I-a,c; II-b,d,e B) I-c,d; II-a,b,e
C) I-b,d,e; II-a,c, D) I-d,e; II-a,b,c
E) I-c,d,e; II-a,b

**8. Sözlərdən biri işlənmə dairəsinə görə digərlərindən fərqlənir:**

A) teyxa B) sərtov C) ayama
D) manşır E) mirab

**9. Cümlələrin birində həm isimləşmiş sifət, həm də sifətləşmiş isim işlənmişdir:**

A) Əzəmətli bina gəzintiyə çıxanları heyran etmişdi.
B) Yaxşılıq heç vaxt itmir.
C) Qalib sevincindən uşaq kimi ağlayırdı.
D) Hamı bu qoçağın igidliklərindən danışırdı.
E) Qoca dəmir barmaqlıqlar arasından həsrətlə baxırdı.

**10. Anarın "Keçən ilin son gecəsi" əsərindəki hadisələrin ardıcıllığını müəyyənləşdirin:**




A) 2, 5, 4, 3, 1  B) 5, 1, 4, 2, 3
C) 1, 5, 4, 3, 2  D) 2, 5, 1, 4, 3
E) 5, 4, 1, 2, 3

**11. Cümlələrin birində isimlərdən ikisi adlıq haldadır.**

A) Xanım, bu qızıl üzük neçəyədir?
B) Mən bir oynaq bülbüləm ki, güldən-gülə uçaram.
C) Qəlbi dağlar baş-başadır, o, Şəkidir, o, Şuşadır.
D) Paslanacaq mənsiz şimşək üzəngim.
E) Arif və Əşrəf dostdurlar.

**12. *Səhv* yazılmış sözləri müəyyənləşdirin.**

1. ekistrasens 2. situasiya 3. doğruculluq
4. taqım 5. filtir

A) 1, 3  B) 3, 4  C) 1, 5
D) 2, 4  E) 2, 5

**13. Uyğunsuzluğu müəyyən edin:**

| DOĞRUDUR | YANLIŞDIR |
|---|---|
| **1.** *"Nə", "nə də", "nə də ki"* bağlayıcıları işlənən cümlənin xəbəri inkarda olmalıdır. **2.**. Köməkçi nitq hissələri heç bir məna daşımır. **3.**. Adlıq cümlə həm müxtəsər və geniş, həm də sadə ola bilər. | **4.** *"Başını qırxdırdı"* cümləsində leksik norma pozulmayıb. **5.** Azərbaycan dilində söz kökünə şəkilçi artırılarkən, bir qayda olaraq, vurğu sözün əvvəlinə doğru istiqamətlənir. **6.** Dil əsasdır, nitq ondan törəmədir. |

A) 1,2,6  B) 3,4,5  C) 1,5,6
D) 2,3,4  E) 1,2,5

**14. N.Gəncəvi yaradıcılığına aid verilmiş nümunələrin hansı əsərlərdən olduğunu müəyyən edin:**

*1. Hər kimdə ki vardısa, ağıllılıq cövhəri,*
*O bacarır hər işi, parlar onun gövhəri.*
*2. Növbə sənə də çatar, əlini eylə hasar.*
*Ədalət çırağındır yolunda, olma naşı,*
*3. Məni bu ruzi üçün günahkar sayma, bəsdir,*
*Düşünsən, bilərsən ki, dediklərin əbəsdir.*

A) 1 və 2 – "Sultan Səncər və qarı"; 3 – "Kərpickəsən kişinin dastanı"
B) 1 – "Yaralı bir uşağın dastanı"; 2 – "Sultan Səncər və qarı"; 3 – "Kərpickəsən kişinin dastanı"
C) 1 – "Kərpickəsən kişinin dastanı"; 2 – "Yaralı bir uşağın dastanı"; 3 – "Sultan Səncər və qarı"
D) 1 və 2 – "Yaralı bir uşağın dastanı"; 3 – "Sultan Səncər və qarı"
E) 1 və 3 – "Kərpickəsən kişinin dastanı", 2 – "Sultan Səncər və qarı"

**15. Seyid Əzim Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsəri ilə bağlı doğru fikirləri seçin:**

1. Əruz vəzninin rəməl bəhrində yazılmışdır.
2. Əsərdə şairin maarifçilik ideyaları öz əksini tapıb.
3. Şeirdə elmin, təhsilin səmərəsi haqqında fikirlər diqqəti cəlb edir.
4. "Molla Nəsrəddin" jurnalında çap etdirmişdir.

5. Həyatda müşahidə edilən nöqsanların, eyiblərin səbəbləri və ondan xilas olmağın yolları əsərdə göstərilmir.
6. Əsər şeir şəklində yazılsa da, onda məktuba xas olan cəhətlər var.
A) 4, 5, 6 B) 1, 2, 3
C) 2, 3, 6 D) 1, 4, 5
E) 2, 3, 4

**16. Klasteri tamamlayın.**




A) Xəzangül xəncəri Sarkisin kürəyinə sancıb intiqamını aldı.
B) Xəzangül H.Cavidin "Ana" faciəsindəki Səlma obrazı kimi övladının qatilini qətlə yetirir.
C) E.Hüseynbəylinin "Firuzə qaşlı xəncər", Z.Xəlilin "Sonuncu güllə" əsərlərindəki qəhrəmanlardan fərqli olaraq, Xəzangül sağ qalır.
D) Xəzangül "Kitabi-Dədə Qorqud" dastanındakı Burla xatun kimi övlad taleyi ilə sınağa çəkilir.
E) Erməni qatilləri Xəzangüldən yaralı ərini öz əlləri ilə öldürməyi tələb edirlər.

**17. Yalnız intonasiya vasitəsilə yaranmış sual cümləsini seçin.**
A) Bəlkə, harada və necə yaşadığını Adil xəbər verib?
B) Heç bu barədə bircə dəfə də olsa, maraqlanmısan ki?
C) Yaz ayları şaqqıldayan selmisən?
D) Siz Gülərdən niyə qorxursunuz axı?
E) Məgər siz də sabah yola düşürsünüz?

**18. Sözlərdən birinin yazılışı ilə tələffüzü arasında üç fərqli məqam var.**
A) nöqsanlı B) tolerantlıq C) codlaşmaq
D) xoşluqla E) nadanlıq

**19**. *Kəsdirrəm gümüşdən yəhər,*
*Tumarlaram axşam, səhər.*
*Götür burdan, qaç bir təhər,*
*Sikkə vurdurram nalına!* ("Koroğlu" dastanı)
**İşarələnmiş feillərlə bağlı *yanlış* fikir hansıdır?**
A) Üçü də quruluşca düzəltmədir.
B) I şəxsin təkinin şəxs sonluğunu qəbul ediblər.
C) Hər üçü təsirli feildir, təsdiqdədir.
D) Qeyri-qəti gələcək zamandadırlar.
E) Feildən düzəlmiş feillərdir.

**20.** *Sənin qəbahətlərini üzünə deyən düşmən bunları gizlədən dostdan yaxşıdır*. (Sokrat)
**Aşağıdakılardan hansı verilmiş nümunədəki fikrlə müqayisədə əks məzmunludur?**
A) Əsl dostlar yaxşı günlərdə dəvət edilincə sizi ziyarət edər, lakin pis günlərinizdə isə dəvət edilmədən gəlirlər.
B) Eyibsiz dost axtaran dostsuz qalar. (Mövlana)
C) Mənim ən yaxşı dostum məndəki ən yaxşı cəhətləri görəndir. (Henri Ford)
D) Yaxşı gündə düşmən gələr dost olar, igid odur yaman gündə dayansın.
E) Tək öz nəfsini düşünüb dost axtaran, xidmətçi axtarır deməkdir. (Cənab Şəhabəddin)

**21. Nümunədə nömrələnmiş yerlərdə vergüldən istifadə ilə bağlı fikirlərdən hansı doğrudur?**
*Sol tərəfə əyilir ot,*
*Bu (1) tərəfə əyilmənin sirri nədir?*
*Bu (2) hörmətə əyilmə yox,*
*Bu (3) yalana dal çevirmə,*
*Həqiqətə əyilmədir! (B.Vahabzadə)*

A) Hər üç yerə vergül qoyulmalıdır.
B) Yalnız 1 yazılan yerə vergül qoyulmalıdır.
C) Nümunədə vergül işarəsi qoyulmalı deyil.
D) 2 və 3 yazılan yerlərə vergül qoyulmalıdır.
E) 1 və 3 yazılan yerlərə vergül qoyulmalıdır.

**22. Verilmiş cümlənin sintaktik təhlilini müəyyən edin:**

*Min cür qara-qura və qorxunc fikirlər quyunun küncünə qısılmış Yusifin kövrək qəlbini yaman sıxırdı.*

A) ∼∼ —— ∼∼ ══
B) ∼∼ ∼∼ —— ∼∼ ---- ══
C) ∼∼ ∼∼ —— ∼∼ ══
D) ∼∼ —— ∼∼ ---- ══
E) ∼∼ ∼∼ ∼∼ —— ∼∼ ══

**23. Hansı nəqli cümləni sual cümləsinə çevirəndə şəxsə görə növü dəyişir?**

A) Hər kəsin etdiyi gec-tez öz qarşısına çıxacaq.
B) Burada hər gün yeniliklərlə qarşılaşırsan.
C) İzlə yeriyənin izi qalmaz.
D) Uzaqdan görünən işıq xilas olacağına ümid yaratdı.
E) Sənədləri vaxtında hazırlamışdılar.

**24**.*"Onun ifasını həmişə səbirsizliklə gözləyərdik"* - **cümləsindəki hansı sözlər sintaktik əlaqənin həm əsas, həm də asılı tərəfidir?**

A) həmişə, gözləyərdik
B) onun, ifasını
C) ifasını, gözləyərdik
D) həmişə, səbirsizliklə
E) səbirsizliklə, gözləyərdik

**25. Boşluqlara uyğun gələn terminlər hansı bənddə düzgün ardıcıllıqla verilmişdir?**

a._____ bədii əsərin mətni ilə əlaqədar olan və bu mətnin izahına kömək edən şəkil.
b._____ əvvəlki ədəbi hadisə ilə yeni ədəbi hadisə arasında ardıcıl varislik əlaqəsidir.
c._____ əsərdə bir şəxsin başqa bir şəxs tərəfindən söylənən sözlərə qısa cavabıdır.
d._____ bədii əsərdə milli idealın və xarakterin əks etdirilməsidir.

A) təsvir, rəvayət, ritorik sual, poetizm
B) novatorluq, ənənə, ricət, tərənnüm
C) illüstrasiya, ənənə, replika, xəlqilik
D) tərənnüm, ibarə, xitab, hekayət
E) illüstrasiya, deklamasiya, amplifikasiya, ithaf

**26. H.Cavidin "Ana" dramından verilmiş parçalar hansı obrazların dilindən deyilir?**

*1.Bir ay pusmaq lazım ac-susuz,*
*Bəklərim onu rahatsız, uyğusuz,*
*Aman verməm ki, sağ qovuşsun evə,*
*Nazlı yarını öpsün sevə-sevə.*

*2. Ah, bən nə yapdım? Nə günah işlədim!*
*Durduğum yerdə bən nə xəlt eylədim?*
*Qanpolad!.. İştə, qıydığım nevcəvan*
*Tükənməz bir uyğuya dalmış... aman!*

*3. Get, gözüm görməsin! Uzaqlaş dəf ol!*
*Nə haqsızlıq etdinsə allahdan bul!*
*Get, çəkil get! Dinsiz, allahsız xain!*
*Murdar izin bu torpaqdan silinsin!*

*4. Ah, qurnaz!*
*Baq, nə qadar mahir, nasıl şivəbaz!..*
*Bir iş var, ancaq saqınır qızcığaz;*
*Sirr verməк istəməz, açmaz ağzını,*
*Xayır, bu halda bən görmədim onu…*

A) 1-İzzət, 2-Murad, 3-Səlma, 4-Səlim
B)1-Qanpolad, 2-İsmət, 3-Murad, 4-İzzət
C)1- İsmət, 2-Murad, 3-İzzət, 4-Səlma
D)1-Orxan, 2-İzzət, 3-Səlma, 4-Murad
E) 1-Orxan, 2- Murad, 3- Səlma, 4- Səlim

**27. Nöqtələrin yerinə uyğun gələn əsər adlarının düzgün ardıcıllığını müəyyən edin:**

*"........" əsərində ədalətsizliyin hökm sürdüyü cəmiyyətdə şəxsiyyət azadlığının necə boğulduğu, məhvə məhkum olduğu təsirli boyalarla əks etdirilmişdir.*

*"......." pyesində milli birlik ideyasının zəruriliyi ön plana çəkilmiş, problemin inandırıcı bədii həlli verilmişdir.*

*"......." əsərində dövrün mühüm ictimai-siyasi qüsurları, mənəvi aşınmalar və bunun səbəbləri yüksək romantik-bədii boyalarla əks etdirilmişdir.*

A) "Bakı müharibəsi", "İblis", "Anamın kitabı"
B) "Əsir Azərbaycanım", "Aydın", "İblis"
C) "Aydın", "Anamın kitabı", "İblis"
D) "Anamın kitabı", "Ədirnə fəthi", "Əsir Azərbaycanım"
E) "Azərbaycan bayrağına", "İblis", "Həyat eşqi"

**28. “Durna teli” qolu (“Koroğlu”) ilə bağlı hadisələrin başvermə ardıcıllığını nəzərə alaraq, nümunələri düzgün sıralayın**.

I. *Nigar xanım, sənə deyim,*
*Bu gələn Eyvaz, bu gələn.*

II. *Xəbər verin dəlilərim oyansın,*
*Tutulubdu bir Eyvazım, əldədi!*

III. *Qoşun gəlib dörd yanımız aldılar,*
*Belə nə yatmısan, ayıl, Eyvaz xan!..*

IV. *Bir atı var Alapaça,*
*Aman vermir Qırat qaça,*
*Şeşpərinin ucu haça,*
*Giziroğlu Mustafa bəy.*

V. *Koroğlu çəkər haşanı,*
*Bəylər edər tamaşanı,*
*Mən özüm Aslan paşanı,*
*Hərəniz bir xan üstünə.*

VI. *Qoç Koroğlu, sənə xəbər söyləyim,*
*Sənin Eyvazından xəbərin varmı?*

A) VI, II, V, I, III, IV
B) I, VI, II, III, V, IV
C) III, VI, II, I, IV, V
D) I, III, VI, II, V, IV
E) I, III, VI, V, II, IV

**29.** B.Vahabzadənin “İstiqlal” poemasından seçilmiş nümunələr bəndlərin ilk misralarıdır. Poemanın məzmununa əsasən, hansı misranın qarşısında verilmiş fikir həmin misranın davamında yer ***almır?***

| | | |
|---|---|---|
| A) | Quzeydə ayağa qalxdı məmləkət… | Müstəqilliyimizə son qoyan rus işğalından bəhs olunur. |
| B) | O kağız, o yazı yumdu gözləri… | Xalqın bölünməsinə səbəb olan “Gülüstan” müqaviləsindən danışılır. |
| C) | Qullar silahlandı qəzəbdən, kindən | Afrika ölkələrinin müstəmləkədən azad olmaları xatırlanır. |
| D) | O şənbə gecəsi ölüb-dirildik | 20 Yanvar hadisəsi xatırlanır, şəhidlər yad olunur. |
| E) | Bir vahid millətə iki hakimin… | Yad dilin yayıldığı, ana dilinin qadağan olunduğu deyilir. |

**30. Aşağıdakı cümlələr düzgün ardıcıllıqla sıralansa, hansı cümlələr mətnin üçüncü və dördüncü cümlələri olar?**

*I. İsfəndiyar kişi bu deyilənlərin heç birini öz gözü ilə görməmişdi, ancaq hamısına inanırdı.*
*II. Danışanda od kimi danışırdı.*
*III. Kənddə söyləyirdilər ki, bu balaca kişi vaxtı ilə hər əlində bir mauzer, təkbaşına yüz qaçağın üstünə gedərmiş.*
*IV. Sovet sədri Qurban kişi – Qılınc Qurban balaca, arıq-quru bir kişi idi.*
*V. Çünki Qurban kişinin indisinə yaxşı bələd idi.*
*VI. Gah çoban, gah dərviş, gah dilənçi libasında, qaçaqlara lap yaxınlaşandan sonra, birdən cır-cındırının altından mauzerləri çıxarıb, özünü daşın dalına verərmiş.*
*VII. Amma yeriyəndə alov kimi yeriyirdi.*

A) I – VI
B) II – III
C) III – IV
D) VI – V
E) VII – II